*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin* ELMİ ƏSƏRLƏRİ № 25, 2018
УЧЁНЫЕ ЗАПИСКИ*Азербайджанского Государственного Университета Культуры и Искусств* № 25, 2018
SCIENTIFIC NEWS *of Azerbaijan State University of Art and Culture* № 25, 2018

**UOT792.01**

***Elnurə Əsədova***
***Azərbaycan Dövlət Mədəniyyət***
***və İncəsənət Universiteti***
***Az-1065, Bakı, İnşaatçılar prospekti 39***
***E-mail:*** elnura_asadova@mail.ru

# F.M.DOSTOYEVSKİ YARADICILIĞINDA İDEYANIN BƏDİİ HƏLLİ

**Xülasə:** F.M.Dostoyevski dünyası bitib-tükənmək bilməyən bir ümmandır. Yazıçının yaradıcılığı istər onun sağlığında, istərsə də ölümündən sonra həm ideyanın bədii həlli, həm də İnsan-qəhrəman münasibətləri baxımından təhlil edilib, araşdırılıb və bu gün də aktual mövzu kimi araşdırılmaqdadır. “F.M.Dostoyevski yaradıcılığında ideyanın bədii həlli” məqaləsində yazıçının ideya qəhrəmanı, qəhrəmanın ideyası təhlil edilir. Dünya ədəbiyyatına yeni bədii forma (polifonik roman janrı) gətirmiş, məşhur romanları ilə insanın, onun həyatının gizli tərəflərini aça və görə bilmiş bir sənətkar kimi F.M.Dostoyevskinin çoxşaxəli yaradıcılığı İdeya, onun bədii həlli və insan problemi müstəvisində çözülüb.

**Açar sözlər:** polifonik roman, ideyanın bədii həlli, ali ideya, fərdi təfəkkür

Öncə qeyd edək ki, bədii ədəbiyyatda polifonik romanın təkrarolunmaz müəllifi kimi tanınan F.M.Dostoyevski insan faktoruna tamamilə yeni baxış nümayiş etdirmişdir. F.M.Dostoyevski təkcə dahi sənətkar deyil, həm də dahi düşünər, görkəmli filosof idi. F.M.Dostoyevskinin yaradıcılığında ideya geniş, mərkəzi rol oynayırdı. Və sənətkar ideya dialektikasına ondan öncə işlənməmiş xüsusi yanaşma gətirmişdir. İdeya onun əsərlərində orqanik həyat yaşayır və qəhrəman kimi həyatı, taleyi olur. İdeyanın həyatı dinamik müstəvidə gəlişir. Məhz F.M.Dostoyevski ideyanın həyatında dinamik prosesi izləyir.

İdeya birbaşa F.M.Dostoyevski poetikasının əsasını, yaratdığı ədəbi qəhrəmanlarının mahiyyətini  təşkil edirdi. F.M.Dostoyevski yaradıcılığında ideya bədii təsvirin obyektinə çevrilir və təsdiq olunmuş faktdır ki, görkəmli yazıçı qüdrətli ideya ustası kimi dünya ədəbiyyatında təstiqlənmişdir. F.M.Dostoyevskinin ustalıqla qələmə aldığı  qəhrəmanı individual “mən”inə qapanmır, ətrafında cərəyan edən həqiqətin axtarışına çıxır. F.M.Dostoyevskiyə görə, dünya haqqında həqiqət şəxsiyyətin həqiqətindən ayrılmazdır. Onun əsərlərinin qəhrəmanları məqsədli formada bu ideyanın daşıyıcılarıdırlar. İdeya yazıçının qəhrəmanında hərəkətli, dinamik mübarizədə təsvir olunur.

F.M.Dostoyevski ideyaları insan taleyi, geniş mənada isə dünyanın aqibəti ilə əlaqədardır.

F.M.Dostoyevski yaradıcılığının ilk mərhələsində özü də bilmədən ideya qəhrəmanını yaratmışdı. 1847-ci illərdə yazılmış, "Evdar qadın" əsərinin qəhrəmanı Ordınov buna misal ola bilər. Məhz F.M.Dostoyevskinin yaratdığı ideya qəhrəmanı nəticədə yazıçının şəxsi obrazına çevriləcəkdir. Onun qələmində ideya öz təbiəti etibarilə mənəvi, ruhi, insani səciyyə daşımır, o, ictimai, məntiqi rakursdan anlaşılır, canlı insan duyğuları və insan mənəviyyatı ilə ziddiyyət təşkil edir. İdeyaya alüdə olmuş, onun təsiri altına düşmüş insan, bir qayda olaraq, mənəvi işgəncələrə düçar olur, çünki ideya onu təbiəti və ruhi mahiyyəti ilə zidd olan fəaliyyətə sövq edir. Odur ki, qəhrəmanla ideya arasında, daha dəqiq ifadə etsək, ideyaya olan iki əks münasibət arasında həlli müşkül olan bir ziddiyyət yaranır: o yaşamının sonunacan ideyadan imtina da edə bilmir, bu ideya ilə yaşaya da bilmir.

F.M.Dostoyevski yaradıcılığında ideya qəhərəman xarakterini və qəhrəman şəxsiyyətini səciyyələndirən xüsusiyyətlərdən biri kimi deyil, müstəqil bir obraz kimi çıxış edir. F.M.Dostoyevski qəhrəmanı mədəni ənənədən təcrid olunmuş "təsadüfi tayfa"nın nümayəndəsidir. Bu qəhrəman ideya və onun hökmranlığı qarşısında acizdir, çünki köksüzdür və mədəni ənənədən məhrumdur. O, "ideya adamına" çevrilir, ideya isə onun daxilində düşüncəsini və həyatını təyin edən müstəqil həyat sürür, çünki yaşayan əslində qəhrəman deyil, ideyadır. Yazıçı qəhrəmanın həyat tarixçəsini deyil, onun daxilindəki ideyanın tarixçəsini təsvir edir. B.M.Engelqardt yazır: "Dostoyevski fərdi və ictimai şüurdakı ideyanın həyatını təsvir etmişdir, çünki o, ideyanı ziyalı cəmiyyətinin həlledici amili hesab edirdi. Lakin bunu belə başa düşmək olmaz ki, guya o, ideyalı romanlar, povestlər yazmış və təmayüllü sənətkar olmuşdur. O, ideyalı romanlar və ya XVIII əsrin zövqünə uyğun olan fəlsəfi romanlar yazmamışdır, *ideya haqqında romanlar* yazmışdır. Onun qəhrəmanı ideya idi" (2, səh.90) F.M.Dostoyevski yaradıcılığında ideya müstəqil bir qüvvə kimi təsvir edilir və sanki qəhrəmanın obrazından ayrı mövcud ola bilmir. Odur ki, F.M.Dostoyevski yaradıcılığının mərkəzində dayanan nə insandır, nə də ki ideyadır, ideya insanıdır, ideyalı insandır. F.M.Dostoyevskiyə görə ideya qəhrəmanın taleyini müəyyənləşdirir və bu ideya F.M.Dostoyevski ideyesı dərin ontoloji, energetik və dinamikdir. Sözügedən ideyada dağıdıcı dinamit enerjisi cəmlənir. F.M.Dostoyevski göstərir ki, ideyanın partlaması sonucda ölümə yol açır.

F.M.Dostoyevski ideyanın fərdi təfəkkürdə yaranmasını və onun təşəkkül mərhələlərini konkret zamanda təsvir etmir. F.M.Dostoyevskinin yaradıcılığında ideyanın təşəkkülü deyilən nəsnə yoxdur. Onun əsas təsvir predmeti hazır və artıq formalaşmış ideyanın düşüncədəki, yaşamdakı gerçəkliyidir. Yazıçı burada ideyanı təsvir prinsipi, leytmotivi və nəticəsi kimi deyil, təsvirin obyekti kimi təqdim edir. İdeya müəllifin özü üçün deyil, yalnız yaratdığı qəhrəmanlar üçün nəzərdə tutulub. İdeya onun qəhrəmanlarının dünyanı görmək və dərk etmək, onu bu ideya nöqteyi-nəzərindən tərtib etmək prinsipidir. Bu ideyalar əsla təsvirin və

bütövlükdə romanın quruluşunun prinsiplərinə, yəni bir sənətkar kimi müəllifin özünün prinsiplərinə çevrilmir, çünki belə olsaydı onun romanları sadə fəlsəfi-ideyalı romanlar kimi alınardı. Bu ideyalar bədii roman yaradıcılığı nöqteyi-nəzərindən Raskolnikovun, İvan Karamazovun və başqalarının ideyaları ilə yanaşı hadisələrin bərabərhüquqlu iştirakçılarıdır.

F.M.Dostoyevski öz qeydlərində yazırdı ki, ideya ağır bir daş kimi insanın üzərinə düşür. Yazıçının da qeyd etdiyi kimi ideya "dövrün səmasında dolaşır", insanın əqlinə qəlbinə daxil olaraq öz icrasına nail olur. Bu da sonucda qəhrəmanı ağır nəticələrə, hətta ölümə belə sürükləyir.

Yazıçının dünya ədəbiyyatına bəxş etdiyi qəhrəmanlarının demək olar ki, hamısı "ali ideya" hikmətinə bürünmüşdür və "ideyanın bədii həlli" kimi mürəkkəb missiyanın daşıyıcılarıdır. Onların təsvir olunan həyatı məhz fikrin (ideyanın) həllinə yönəlmişdir. Əgər biz qəhrəmanların daşıdıqları ideyanı onlardan ayırsaq, onda obrazları tamamilə dağılar. Bir sözlə, qəhrəman obrazı ideya obrazı ilə ayrılmaz şəkildə bağlıdır. Oxucu isə qəhrəmanı ideyada və ideya vasitəsilə, ideyanı isə qəhrəmanda, onun vasitəsilə görür. Nümunə kim yazıçının məşhur "Cinayət və cəza" romanının qəhrəmanı Raskolnikovun sələmçi qarını öldürməsi faktını göstərə bilərik. Raskolnikov qarını qızıl-zinət əşyalarına, pula görə deyil, məhz ideya uğrunda apardığı mübarizənin nəticəsi kimi öldürdü. "İdeya adamları kimi Dostoyevskinin bütün qəhrəmanları tamamilə təmənnasızdırlar, çünki, ideya, doğrudan da, onların şəxsiyyətə hakimdir" (4, səh.124). Yazıçının "Cinayət və cəza" adı ilə tanıdığımız, özünün isə "Tövbə" kimi adlandırdığı romanın ideyasını (baş qəhrəman Raskolnikovun ideyasını) F.M.Dostoyevski belə ifadə edirdi: "Onun romandakı surətində hədsiz qürur, təkəbbür və lovğalıq, bu cəmiyyətə qarşı nifrət ifadə olunur... O hökmranlıq etmək istəyir, amma heç bir vasitə tapa bilmir. Öldürmək ideyası isə onun ağlına hazır şəkildə gəlir" (3, səh.440). Bu bir cinayətin psixoloji hesabatı idi. Raskolnikov qarını niyə öldürür? Əgər F.M.Dostoyevskinin kifayət qədər nikbincəsinə sübut etmək istədiklərinə inansaq, Raskolnikov bir tərəfdən ailəsinə, digər tərəfdən isə yüksək ideallara sadiq, fədakarlığı bacaran, mehriban, böyük ürəkli, çalışqan, lakin hədsiz bədgüman və qürurlu, hətta heç bir səmimi, aşiqanə münasibətlərə ehtiyac duymadan özünə qapanan gənc idi. Bu çox yaxşı, böyükürəkli və qürurlu gənc ümidsizcəsinə kasıbdır. Raskolnikov sələmçi qarını və onun bacısını niyə öldürür? Aydındır ki, ailəsini kasıblıqdan qurtarmaq və bir də ki, onun (Raskolnikovun) universiteti bitirməsinə yardım edəcək varlı alçağa ərə getməyə hazırlaşan bacısını xilas etmək üçün. Lakin o, həm də kimin tərəfindən uydurulduğu məlum olmayan əxlaq qanunlarını rəhbər tutan adi adam deyil. Raskolnikov öz qanunlarını yaratmağa, əxlaqi məsuliyyətin bütün ağırlığına, vicdan əzabına dözməyə və yaxşı məqsəd uğrunda (ailəyə kömək, insanlığa fayda vermək üçün təhsil almaq) ən alçaq vasitəni (qətli) seçməyə qadir şəxsiyyət olduğunu sübut etmək üçün adam öldürür. Bir də o, F.M.Dostoyevskinin sevimli ideyasına görə qatil olur – maddi ideyanın gücü insanın əxlaqını pozur və hətta yaxşı gənci belə qatil edə bilir. Beləliklə, o, olayların uğursuz inkişafı zamanı asanlıqla cinayətə əl ata bilir. Raskolnikovun "cinayət"ində inkişaf etdirdiyi

ideyalara diqqət yetirin: bəşəriyyət iki hissədən ibarətdir, kütlə və ali insan, əksəriyyət mövcud əxlaqi qanunlara tabe olmalıdır, lakin kütlədən yüksəkdə dayanan tənha adamlara öz qanunlarını təsis etmək sərbəstliyi verilməlidir. Əvvəlcə Raskolnikov bəyan edir ki, insan həyatı kəşflərə mane olursa, Nyuton və digər böyük alimlər yüzlərlə həyatı qurban verə bilərdi. Sonra naməlum səbəbdən o, insan soyunun xeyirxahlarını unudub diqqətini tamam başqa ideala yönəldir. Onun bütün şöhrətpərəst meylləri böyük şəxsiyyət hesab etdiyi Napoleonun üzərində toplanır. Raskolnikov bir fərd olaraq əksliklərin sienergetik nöqtəsi idi. Təsadüfi deyil ki, F.M.Dostoyevskinin yaratdığı bütün canilərin ("Karamazov qardaşları"nda Smerdyakov, "Şeytanlar"da Fedka, "İdiot"da Roqojin) ağlı başında deyil.

F.M.Dostoyevkinin "İdiot" romanında biz müsbət qəhrəmanın xeyirxah ideyalarını görürük. Bu yalnız yaxşılığa və bağışlamaq xüsusiyyətinə qadir olan knyaz Mışkindir. Mışkin fövqəladə həssas adamdır və o, başqa insanların başına gələn hər şeyi hiss edir, duyur. Onun mənəvi müdrikliyi, təmizliyi başqalarının dərdini anlaması, mərhəməti Knyaz Mışkin onu əhatə edən dünya ilə toqquşmaya gətirib çıxarır.

"Karamazov qardaşları" isə F.M.Dostoyevskinin digər romanlarında istifadə etdiyi detektiv texnikasının ən gözəl nümunəsidir. Fəsillərin adları qeyri-adidir və insanı çaşdırır, romanla tanış olmayan insan qarşısında roman yox, hansısa ekssentrik vodevil librettosu olduğunu düşünüb asanlıqla yanılır. Əslində fəsillərin adları belə ayrı-ayrılıqda maraqlı ideyalardır: 3-cü fəsil: "Coşqun qəlbin etirafı.. Şeirlərlə", 4-cü fəsil.: "Coşqun qəlbin etirafı.. Lətifələrlə", 5-ci fəsil: "Coşqun qəlbun etirafı.. Başı aşağı". Sonra ikinci cildin 5-ci fəsli: "Qonaq otağında canfəşanlıq", 6-cı fəsil: "Daxmada canfəşanlıq", 7-ci fəsil: "Və açıq havada".

"Yeniyetmə" romanının qəhrəmanı isə Rotşild kimi varlı bir milçonçu olmaq istəyir ki, sonradan bu milyonları paylayıb kasıb vəziyyətə düşsün. Burada da məqsəd pul deyil, qarşıya qoyulan ideyadır.

F.M.Dostoyevski dünya masştablı yazıçı olaraq, öz şəxsi ideyalarını yaratmaqla məşğul olmamış, ideyanın təsvirini, onun obrazının yaradılmasını özünün əsas vəzifəsi hesab etmişdir. F.M.Dostoyevskinin yazıçı kimi fərqliliyi də ondadır ki, o, dövrün, zəmanənin yaratmış olduğu ideyaları duyub, obrazlı şəkildə ifadə edə bilmişdir. Onun əsərlərində ideya insan tərəfindən subyektiv şəkildə yaradılmır. O, insan düşüncəsinə sanki kənardan daxil olur və onun bütün varlığına hakim kəsilir. Qəhrəman ideyadan istifadə etmir, amma o, ideyanı idarə də etmir. İdeya ilə insan arasında səbəb-nəticə əlaqəsi yoxdur, onların hər biri tamhüquqlu və müstəqil qüvvələrdir. İdeyanın bu xüsusiyyətini F.M.Dostoyevski realistcəsinə təsvir etmişdir. İnsan ideya üzərində hakim olmur və bu ideya onun taleyini, aqibətini təyin edir.

F.M.Dostoyevski öz ideyalarını alimlər, filosoflar kimi öncədən təyin edilmiş kompozisiyanın əsasında yaratmırdı. O, real həyatın özündə tapdığı, eşitdiyi, bəzən də duyduğu ideyaların, yəni artıq yaşamaq hüququ qazanmış ideyaların canlı bədii obrazını yaradırdı. F.M.Dostoyevski öz dövrü ilə dialoqa girmək istedadına malik

idi. F.M.Dostoyevski heç zaman ideya obrazlarını xəyali tərzdə yaratmamış, onları uydurmamışdır. F.M.Dostoyevski qəhrəmanları mövcud olduqları zaman və məkanda zamanı eşidə, duya bilmişdir.

## Ədəbiyyat:

1. Ален Л. Достоевский и Бог. СПб, филиал журнала «Юность», 1993
2. Энгельгардт Б.М. Идеологический роман Достоевского. В сб.: Ф.М. Достоевский. Статьи и материалы, с.90
3. Leonid Qrossman. Dostoyevski. Bakı: Qanun nəşriyyatı, 2015, səh.440
4. Baxtin M. Dostoyevski problemlərinin poetikası. Bakı: Şərq-Qərb, səh.124

**Эльнура Асадова**

## Художественное решение идеи в творчестве Ф.М.Достоевского

### Резюме

Автор статьи исследует проблему художественного решения идеи в творчестве выдающегося писателя мировой литературы Ф.М.Достоевского. В статье особо отмечается новаторство Ф.Достоевского, а именно внедрение новой художественной формы (жанра) в мировую литературу, как полифонический роман. Посредством жанра полифонического романа Ф.Достоевский раскрывал скрытые стороны внутреннего мира своих героев.

**Ключевые слова**: полифонический роман, художественное решение идеи, индивидуальное мышление.

**Elnura Asadova**

## Artistic solution of ideas in Dostoevsky's works

### Summary

The author explores the issue of artistic idea in the works of the famous writer of world literature Fyodor Dostoyevsky. It is also noted the innovation of Dostoevsky, namely the introduction of a new artistic form (genre) in the world literature as a polyphonic novel. Through the genre of the polyphonic novel F. Dostoevsky revealed the hidden inner world of his characters.

**Keywords**: polyphonic novel, artistic solution ofideas, individual thinking.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 25.04.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 08.05. 2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 18.06.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru Fərİdə Cəlilova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**